## Qrant müsabiqəsi elanı

### Təhsil Nazirliyinin "Tələbələr arasında könüllülüyün təbliği və tələbə-könüllülər hərəkatının təşkili" mövzusunda qrant müsabiqəsinin elanı

Tələbələr arasında könüllülüyün təbliği, tələbə-könüllülərin dünyagörüşünün genişləndirilməsi, maraq dairələri üzrə klubların yaradılması, müvafiq təlim kurslarının təşkil olunması və digər işlərin təşkili məqsədi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi "Tələbələr arasında könüllülüyün təbliği və tələbə-könüllülər hərəkatının inkişafı" mövzusunda qrant müsabiqəsini elan edir.

**Müsabiqədə iştirak:**

Müsabiqədə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxslər iştirak edə bilərlər.

**Müsabiqədə iştiraka dair tələblər:**

- Namizəd ali və orta ixtisas təhsili müəssisələrində tələbə-könüllülərlə işin təşkili və inkişaf etdirilməsi sahəsində təcrübəyə malik olmalıdır.
- Layihə ən azı 7 regionu əhatə etməlidir.
- Təqdim ediləcək layihələr ən azı 40 ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbə-könüllüləri əhatə etməlidir.
- Hər bir hüquqi şəxs yalnız bir layihə ilə müraciət edə bilər.

**Layihələrin təqdim edilməsi:**

Layihə təklifləri 17 mart 2020-ci ilədək Təhsil Nazirliyinə müvafiq elektron poçt (layihe2020@edu.gov.az) vasitəsilə təqdim olunmalıdır. Müraciət zamanı təşkilatlar layihə və büdcə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

- QHT-nin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surəti;
- Təşkilatın Nizamnaməsinin surəti;
- Təşkilatın Dövlət Reyestrindən çıxarışının surəti;
- Təşkilatın VÖEN-nin surəti;
- Təşkilatın fəaliyyəti haqqında qısa məlumat;
- Layihəyə rəhbərlik edəcək şəxsin və əsas əməkdaşların tərcümeyi-halı (CV).

**Qiymətləndirmə meyarları:**

1. Qurumun təcrübəsi;
2. Layihənin icrasına dair dəqiq ifadə edilmiş və əsaslandırılmış təsvirin olması;
3. Layihənin icrasına cəlb ediləcək mütəxəssislərin oxşar məqsədli layihələrdə iştirak təcrübəsi;
4. Qrant layihəsi üçün tələb olunan maliyyələşdirilmənin məbləğinin məntiqli və reallığa uyğun olaraq ciddi şəkildə əsaslandırılması;
5. Layihənin səmərəliliyi və layihənin icrası ilə bağlı risklərin qiymətləndirilməsi.

**Müsabiqənin müddəti:**

Layihələrin qəbulu 05 mart 2020-ci il tarixdən başlayır və 17 mart 2020-ci il tarixdə başa çatır.

**Layihələrin qəbulu üçün son tarix:**

17 mart 2020-ci il, saat 18:00